AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

UNEC DİZAYN MƏKTƏBİ

Azərbaycan Rəssamalar İttifaqı

MUZEY MƏRKƏZİ

XƏZİNƏ

Aynur Rzayeva

Aynur Rzayeva Zəhrəman qızı

Filologiya üzrə fəlsəfə doktoru.
Azərbaycan Dövlət İqtisad Universitetinin,
UNEC Dizayn məktəbinin müəllimi.
Azərbaycan Rəssamlar İttifaqının üzvü.

KLASSİK İRSƏ YARADICI MÜNASİBƏT

Azərbaycan xalqına dünya şöhrəti bəxş edən dekorativ-tətbiqi sənət növləri arasında xalçaçılığın xüsusi yer tutması danılmaz faktdır. Onun həsirdən başlayıb xovlu xalçaya kimi uzanan inkişaf mərhələsinin bu gün də çoxları üçün əvəzolunmaz məktəb, bəzilərinə isə ilham qaynağı olması, ilk növbədə onun çoxsaylı çeşnilərində ifadə olumuş özünəməxsus estetikanın əbədilik qazanması ilə əlaqədardır. Elə bu duyğulandırıcı estetikanın danılmazlığındandır ki, xalça ustaları ilə yanaşı, çox vaxt bu cür xalçalarla təmasda olan rəssamlarımız da onları özlərinə ilham qaynağı seçməkdədirlər. Əgər milli sənət tariximizə nəzər salsaq, onda xovlu və xovsuz xalçaların müxtəlif janrlı rəngkarlıq və qrafik əsərlərin çoxsaylı kompozisiyalarında aparıcı yer tutduğunu görə bilərik. Etiraf edək ki, əksər belə əsərlərdə xalçanın başlıca məna-məzmun daşıyıcılığında yalnız yardımçı rolunun həvalə olunduğu kifayət qədər görünəndir. Xalçanın əsərin, daha dəqiq desək, silsilə əsərlərin kompozisiyasının dominantına çevrilməsi faktına isə ilk olaraq Aynur Rzayevanın yaradıcılığı timsalında rast gəlinir. Bunu onun "Xəzinə" adlandırılan fərdi sərgisində nümayiş etdirilən rəngkarlıq tabloları da təsdiqləyir. Görünür Aynur xanımın filologiya üzrə fəlsəfə doktoru olmasının, ixtisasca folklorumuza bağlılığının xalçaya marağının yaranmasında az rolu olmamışdır.

Fikrimizi davam etdirməli olsaq, müəllifin xalçalı kompozisiyalarında sadə yox, daha mürəkkəb bədii ifadə tərzinə müraciət etməsini da vurğulamaq istərdik. Belə ki, Aynur Rzayeva zövqünə müvafiq – ürəyinə yaxın hesab etdiyi çeşniləri heç də tam – açıq şəkildə göstərməkdən uzaq olmaqla daha mürəkkəb yol seçib. O, həmin toxuculuq nümunələrini müxtəlif formalarda qatlamaqla, ilk növbədə, bu "qatlanmış xalça görüntü"lərinin əvvəllər rast gəlinməyən gözəllik qaynağına çevrilməsinə nail olmuşdur.

Etiraf edək ki, müəllifin bu xalçaların təqdimatı üçün tapdığı bədii konfiqurasiyanın özünəməxsusluğundandır ki, ayrı-ayrı qrupları təmsil edən çeşnilərin hər biri bir-birindən fərqli estetik yük daşıyıcısı çıxış edirlər. Odur ki, bu çeşidli konfiqurasiyaların ritmli keçidlərindən yaranan görüntülərdə bədii axıcılıq kifayət qədər duyulan olduğundan, bu birəşyalı kompozisiyalar cəlbedici qəbul olunurlar. Çeşnilərin əyaniləşən naxış örtüyü nə qədər qatlanmış vəziyyətdə olsalar da, onların ətrafı ilə əlaqəsində əyaniləşən estetik qaynaqlar kifayət qədər duyulmaqdadır. Qənaətimizcə, müəllifin bu xalçaları həm də fərqli fon-yerlikdə təqdim etməsinin nəticəsidir ki, onlarla xalçalar arasındakı əmələ gələn bədii uyarlıq, son nəticədə, əsərlərin bütövlüyünün əldə olunmasına xidmət edir.

Yaxşı haldır ki, Aynur xanım bu yanaşmanı daha mürəkkəb tutumlu natürmortlarında da davam etdirib. Başqa sözlə desək, kompozisiyaların tərtibatı dəyişsə də, müəllif tərəfindən yaradıcı prosesin məntiqli-uğurlu axara yönəldilməsi istəyi qabarıq duyulmaqdadır. Ən başlıcası isə, rəssamın təmasda olduğu və özünəməxsus tərzdə bədiiləşdirdiyi maddi-mədəniyyət nümunələrinə sonsuz sevgi duyulmaqdadır. Odur ki, belə əsərlər hamı üçün yeni və maraqlı görünməkdədir...

Lalə Məmmədova
Sənətşünaslıq üzrə fəlsəfə doktoru,
Azərbaycan Rəssamlar İttifaqının üzvü
UNEC Dizayn məktəbinin direktoru.

ƏNƏNƏVİLƏŞƏN JANRA YENİ BAXIŞ

Öncədən deyim ki, istedadlı rəssam Aynur Rzayevanın yaradıcılığı ilə tanışlıq məndə xoş təəssürat oyatdı. Yaşımın mənə verdiyi imkan çərçivəsində şahidi olduğun müxtəlif miqyaslı sərgilərdə hələ ki, Aynur Rzayevanın hamımıza tanış olan əşyalara bu cür fərqli bədii münasbətə rast gəlməmişəm. Rəssamların demək olar ki, hamısının müraciət etdiyi natürmort janrına bu cür fərqli yanaşma, qənaətimcə, yenidir. Ən maraqlısı, bu lövhələrdə elə ilk baxışdan reallığı danılmaz olan üsluba özünəməxsus baxışın mövcudluğudur. Etiraf edək ki, gördüklərimiz əşyalara nə naturalistikliyin, nə də "soyuq-quru realizm"in nəticələridir. Belə ki, müəllifin gözü önündə canlanan və kompozisiyaları təşkil edən əşyalara və onun ayrı-ayrı ayrıntılarına sözlə ifadəsi bəlkə də çətin olan bədii münasibət müşahidə olunmaqdadır. Elə bunun sayəsində də müxtəlif çeşnili xalçalara, onun əsas və köməkçi bəzək elementlərinə verilən bədii görüntüdə müəllifin icra sənətkarlığını görmək mümkündür. Hesab edirəm ki, Aynur Rzayevanın milli maddi - mədəniyyət nümunələrinə bu cür sonsuz məhəbbətlə yanaşması, digər yaradıcılarımız üçün də nümunə olmağa layiqdir.

Yeri gəlmişkən müəllifin yaradıcılıq irsində müşahidə etdiyim və onun əsərlərinin uğurunu təmin edən bədii-texniki xüsusiyyətləri də vurğulamaq istərdim. Heç şübhəsiz, ilk növbədə onun azfiqurlu əsərlərindəki cəlbedicilik və kompozisiya bütövlüyü maraq doğurur. Bundan əlavə, rəssamın kompozisiyanın rəng həllinin gözoxşayan və yaddaqalan olmasını əldə etməsini də müəllifin gərgin axtarışlarının nəticəsi saymaq olar. Hiss olunur ki, onun yaradıcı potensialı genişdir və inanıram ki, yeni sərgilərində Aynur xanımın indikindən də fərqli bədii yanaşmalarına şahidlik edə biləcəyik.

Sonda demək istəyirəm ki, vaxtlarını çoxunu molbert arxasında keçirən rəssamlar çox vaxt özlərinə təsvir obyekti seçməkdə çətinlik çəkirlər. Aynur xanımın çeşidli xalçaları və digər el sənəti nümunələrini özünə ilham qaynağı seçməsi göstərir ki, rəssam daha diqqətli olanda və yaxud da təxəyyülünü pərvazlandıra biləndə, sadə və adi motivlərdə də gözəllik qaynağı tapmaq mümkündür. Düşünürəm ki, istənilən mövzuya yenidən qayıtmaq, onun görünən və çox vaxt da ilk baxışda görünməyən tərəflərinə nüfuz etmək, başqaları üçün maraqlı görünə biləcək rakursdan onu əyaniləşdirmək hər bir yaradıcının imkanı çərçivəsində olan məsələdir. Odur ki, Aynur Rzayevanın Muzey Mərkəzində təşkil olunan fərdi sərgisini bədii məkanımızda yaddaqalan hesab etməklə, ona yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayıram!



Ağəli İbrahimov
Xalq rəssamı, professor
Rəssamlar İttifaqının katibi.

EL SƏNƏTİNƏ SEVGİNİN BƏDİİ TƏCƏSSÜMÜ

Müstəqillik dövründə – təsviri sənətin ideologiyadan azad olduğu bir şəraitdə inkişafının rəssamlıq məkanında özünü-ifadə imkanlarını nəhayətsiz dərəcədə genişləndirməsi danılmazdır. Bunun sayəsində çoxlarının milli bədii qaynaqlardan faydalanmaq əvəzinə Qərbin zamanında ictimailəşdirilən və "gedər-gəlməzlər saxlancı"nda topladıqlarına uğursuz qayıdışların duyulası dərəcədə çoxaldığını deməliyik. Özü də bunun onların müəlliflərinin düşündüyü kimi heç də müasir sənət nümunəsi olmayıb, yalnız müasir dövrün incəsənəti kimi qəbul olunduğunu təəssüflə qeyd etməliyik.

Belə uğursuz "reinkarnasiya"ların qarşılığında, yaradıcılarımızın həm özümüzə, həm də başqalarına bütün mənalarda maraqlı görünə biləcək axtarışlarının uğurlu nəticələrini görmək, heç şübhəsiz, çox təqdirəlayiqdir. Adı geniş tamaşaçı kütlələrinə hələ az tanış olan Aynur Rzayevanın bu sərgidə təqdim etdiyi rəngkarlıq nümunələri məhz belə qibtəedici əsərlərdəndir. Rəmzi olaraq "Xəzinə" adı altında toplanan və yeniliyi ilə diqqətçəkən bu bədii irsdə ilk növbədə qədim tarixə malik olan natürmort janrının "estetik xəritəsi"ni genişləndirmək istəyi qabarıq duyulmaqdadır.

Milli xalçalarımızı iriölçülü rəngkarlıq kompoziyalarının dominantına çevirən müəllifin zamanında xalqımızın "tanınma nişanı"na çevrilmiş maddi-mədəniyyət nümunəsinin çoxqatlı estetikasının zənginliyini boyaların işığında tamaşaçılara təqdim etmişdir.

Qənaətimizcə, Aynur xanımın "xalça sevgi"sinin onun milli folklora bağlılığından qaynaqlandığını dilə gətirsək, həqiqəti söyləmiş olarıq. Onun xalça kimi çox dərin qatlı estetik yük daşıyıcısının "aysberq"liyinə vurğunluğunun ifadəsi olan çoxsaylı xalçalı kompozisiyalarda nümayiş olunan yüksək icra sənətkarlığı, həm də çoxdan zamansızlığa qovuşduğunu təsdiqləyən həmin mənəvi dəyərlərimizin ölçüyəgəlməzliyindən qaynaqlanır. Xalçanın "aysberq"liyi ilə istənilən müasir konseptual sənət nümunələri ilə bəhsləşə biləcəyinə inamımızın qarşılığında, Aynur xanımın, obrazlı dillə desək, mövzu – süjet sorağı ilə Qogen kimi Taiti adasına getməyib, elə gözümüzün qarşısında olan – doğuluşumuzdan qəbr evinə kimi bizi izləyən xalçalarımızı özünə ilham mənbəyi seçməsini yalnız təqdir etmək olar. Bununla belə, onun bu ilk baxışda kimlərəsə məhdud görünə biləcək seçim çərçivəsini Azərbaycanımızın müxtəlif qrup xalçalarına müraciəti ilə daha da genişləndirməsinin də məqsədli olduğunu deməliyik. Təbii ki, onun "Şuşa", "Şahnəzərli", "Şirvan", "Qollu çiçi", "Bakı", "Qaraqaşlı", "Qazax" və s. məşhur xalça çeşnilərinə müraciətində, bu klassik nümunələrin müxtəlifliyində hifz olunan rəng - naxış estetikasının cəlbedici və yaddaqalan tutumda əyaniləşdirilməsi durur. Etiraf edək ki, "Xəzinə" sərgisində bir araya gətirilən bu dekorativ-tətbiqi sənət nümunələri onun tamaşaçısına respublikamızın müxtəlif guşələrinə qiyabi səyahət etməklə yanaşı, yerlərdə duyulası sənətkarlıqla yaradılmış xalçaların zənginliyi ilə diqqət çəkən estetikasını duymağa imkan verən qədim dövrlərin "uçan xalça"larına müəllifin bədii münasibətində yaratdıqlarını həm də əfsanələşdirmək istəyi hifz olunduğundan, ərsəyə gətirilmiş xalçalı kompozisiyalar ümumi bədii tutumuna görə qibtəedici qəbul olunurlar...

Bənzərsizliyi onsuz da danılmaz olan

xalçalarımızın bir-birindən fərqli rənglərinə və naxış örtüyünə fərdi və fərqli münasibət göstərən rəssam, əslində həm də fikir daşıyıcısı kimi çıxış edən çeşnilərin bədiiliyi duyulan bükümlərini mənalandırmağa çalışmışdır. Diqqətçəkən məqamlardan biri, bəlkə də birincisi rəssamın bu ritmli bükümləri faktura duyulanlığı və bir-birindən fərqli axıcı konfiqurasiyalarla təqdim etməsidir. Bu cür təqdimatın tamaşaçıda bir-birindən fərqli ovqat yaradılmasına xidmət etməsi də danılmazdır. Müəllifin kifayət qədər real-gerçəkçi bədii şərhlə şərtliyi ilə fərqlənən "xalça dili" ilə uyarlıq yarada bilməsini, heç şübhəsiz, müəllifin uğuru saymaq olar.

Müxtəlif çeşnili xalçaları çox vaxt ətraf mühitdən təcrid olunmuş biçimdə – təkəşyalı kompozisiyalarda təqdim edən Aynur xanım, bununla bu dəyərli maddi-mədəniyyət nümunələrinin büküm "seli"ndən boylanan görüntüsündə tamaşaçısını ovsunlaya biləcək estetik qaynaqların üzə çıxarılmasına – əyaniləşdirilməsinə çalışmışdır. Xalçanın nikbin boyalardan "hörülmüş" ümumi koloritində ifadə olunan məna-məzmun, bütünlükdə, həm də çoxmənalı rəmz daşıyıcısı kimi çıxış etdiyindən, xalçaların ayrı-ayrı qruplarını səciyyələndirən naxış örtüklərinin müəllif məqsədinə müvafiq rakursda təqdimatını da müəllifin bədii tapıntısı kimi dəyərləndirmək mümkündür.

Müəllifin xalça sevgisinin digər el sənətkarlığı nümunələri ilə vəhdətindən ərsəyə gətirilən əsərlərində də, təkəşyalı lövhələrində olduğu kimi, yenə də arzulanan cəlbedici duyğulandırıcılıq görüntüyə gətirilən əşyaların bədii bütövlüyünə yüksəlməklə əldə olunmuşdur. Əgər "Şəki xurcunu ilə natürmort" əsərində maddi-mədəniyyət nümunələri yurdun təbii sərvətləri ilə qovuşaqda təqdim olunubsa, "Şuşa xalçası", "Lahıcın mis qabları" və "Qazax xalçası" lövhəsində isə toxunuşlu toxuculuq nümunələrinin qədim misgərlik əşyaları ilə "qonşuluğu" mövcudluğu ilə bütün dövrlərdə hər birimizə qürurvericilik bəxş edən el sənətimizə bu gün də sevgi və ehtiramın yaşamaqda davam etdiyini nümayiş etdirir. Başqa sözlə desək, gördüklərimiz el sənətini el şöhrətinə çevirməyi bacaran yaradıcılarımızın gözünün nuru, əllərinin hərarəti ilə ərsəyə gətirilən milli irsimizə həm də sonsuz rəğbətin ifadəsidir...

Sonda deyək ki, Aynur Rzayevanın bizə çox tanış olan əşyalardan tərtib olunmuş kompozisiyalarının bir fərqli özəlliyi də onun çox vaxt gözümüzdə adiləşən bu el sənəti nümunələrinə orijinallığı ilə seçilən baxış - münasibət nümayiş etdirə bilməsidir. Əgər təsviri sənət sahəsində mövcud olan mövzularda bu vaxta qədər heç bir köklü yenilik baş verməyibsə, qədim zamanlardan başlayaraq bu günümüzə kimi müxtəlif xalqların adlarını sənət tarixində əbədiləşdirilmiş yaradıcıları yalnız məlum – ənənəviləşən mövzulara əvvəlkilərdən fərqli bədii yanaşma sərgiləməklə, yaratdıqlarıının zamansızlığa qovuşdurmağa nail olublar. Bunu Aynur Rzayevanın duyğulandırıcı bədii irsi ilə əlaqələndirməli olsaq, onda onun çoxlarına tükənmiş kimi görünən realizmə yaradıcı nüfuzundan – fərdi münasibətindən gerçəkçiliyi hamıya sevdirə biləcək bədii yanaşma ərsəyə gətirə bildiyini əminliklə söyləyə bilərik. Onun bu sərgidə yaxından tanış ola bildiyiniz "bükməli xalça"ları da bunun əyani təsdiqidir...

Ziyadxan Əliyev
Əməkdar incəsənət xadimi, professor

"Xarıbülbül rəqsi"
120/120 kətan, yağlı boya

"Şuşa xalçası"
100/70 kətan, yağlı boya

"Şirvan xalçası" 200/120
kətan, yağlı boya

"Qollu çiçi xalçası" - Quba
200/120 kətan, yağlı boya

"Şuşa xalçası" 200/120
kətan, yağlı boya

"Şəki xurcunu ilə natürmort"
100/75 kətan, yağlı boya

"Bakı xalçası" 170/90
kətan, yağlı boya

"Şahnəzərli xalçası" - Şabran
200/120 kətan, yağlı boya

"Mis qablarla Şirvan xalçası"
135/80 kətan, yağlı boya

"Lahıc mis qabları"
80/60 kətan, yağlı boya

"Xalça" 120/85 kətan,
yağlı boya

"Naxçıvan xalçası"
100/70 kətan, yağlı boya

"Mis qablarla Bakı xalçası"
120/75 kətan, yağlı boya

"Natürmort" 60/50
kətan, yağlı boya

"Qaraqaşlı çeşnisi"
120/85 kətan, yağlı boya



"Qazax xalçası"
40/30 kətan, yağlı boya

"Xalçadan fraqment"
40/30 kətan, yağlı boya

"Qazax xalçası"
120/75 kətan, yağlı boya

"Gəncə xalçası - Yuxu"
120/80 kətan, yağlı boya